**3 sentyabr 2020-ci il** **2-492/2020**

**Naxçıvan Muxtar Respublikasının**
**Ali Məhkəməsinə**

**Azərbaycan Respublikasının**
**apellyasiya məhkəmələrinə**

**Azərbaycan Respublikasının**
**rayon (şəhər) və kommersiya məhkəmələrinə**

Azərbaycan Respublikasının 28 dekabr 2018-ci il tarixli 1436-VQD nömrəli Qanunu ilə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə 10-1-ci maddə əlavə edilmiş, kommersiya mübahisələri üzrə məhkəmə icraatının, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılmasının “Elektron məhkəmə” informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilməsinin məcburiliyi, mülki işlər üzrə məhkəmə icraatının isə yalnız “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə həyata keçirilməsinin mümkünlüyü təsbit edilmişdir.

Qeyd olunan normanın məhkəmə aidiyyəti üzrə kommersiya məhkəmələrinə göndərilmiş işlər üzrə tətbiqi təcrübəsinin təhlili göstərir ki, ümumi yurisdiksiya məhkəmələrinə verilmiş iddia ərizələri elektron kabinet vasitəsilə verilmədiyindən və müvafiq olaraq icraat elektron qaydada aparılmadığından, belə iddialar üzrə işlər sonradan məhkəmə aidiyyəti üzrə kommersiya məhkəmələrinə göndərildikdə, Mülki Prosessual Məcəllənin 10-1-ci maddəsinin tələblərinə heç də həmişə əməl edilmir.

Məhkəmə aidiyyəti üzrə göndərilən işlər üzrə Mülki Prosessual Məcəllənin 10-1-ci maddəsinin tələblərinə əməl edilməsinin zəruriliyi nəzərə alınaraq məhkəmələrə izah edilməlidir ki, “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu ümumi yurisdiksiya məhkəmələri işin məhkəmə aidiyyəti üzrə kommersiya məhkəmələrinə aid olması qənaətinə gəldikdə, kağız daşıyıcıda iş materiallarının elektron məhkəmə informasiya sisteminə yerləşdirilməsini (texniki vasitələrdən istifadə etməklə kağız sənədin elektron sənədə çevrilməsi) təmin etməlidir. Yalnız bundan sonra iş kommersiya məhkəmələrinə göndərilə bilər ki, sonuncunun Mülki Prosessual Məcəllənin 10-1-ci maddəsinin tələblərinə əməl etməklə işə baxılmasını davam etdirmək imkanı olsun.

Bununla yanaşı qeyd edilməlidir ki, “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunmadığı ümumi məhkəmələrdə məhkəmə aidiyyəti üzrə kommersiya məhkəmələrinə göndərilən işləri elektron qeydiyyata almaq və kağız daşıyıcıda iş materiallarını elektron sənədə çevirməklə elektron məhkəmə informasiya sisteminə yerləşdirmək imkanları mövcud deyildir. Bu baxımdan, həmin məhkəmələrdən kommersiya məhkəmələrinə kağız daşıyıcıda daxil olmuş işlərin elektron qeydiyyatı və iş materiallarının elektron məhkəmə informasiya sisteminə yerləşdirilməsi müvafiq kommersiya məhkəmələri tərəfindən təmin edilməlidir.

Həmçinin nəzərə alınmalıdır ki, apellyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən məhkəmə aidiyyətinə görə kommersiya məhkəmələrinə kağız daşıyıcıda göndərilmiş işlərin elektron qeydiyyatı və iş materiallarının elektron məhkəmə informasiya sisteminə yerləşdirilməsi müvafiq kommersiya məhkəmələri tərəfindən təmin edilməlidir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyası**